MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

ÇAY MƏDƏNİYYƏTİ: TARİXİ, SOSİAL ROLU VƏ MƏRASİM ƏNƏNƏLƏRİ
Ceyhun İsmayılov 201

İFTARIN SOSİAL VƏ DİNİ ƏHƏMİYYƏTİ
Əhməd Niyazov 211

SEYİD YƏHYA BAKUVİNİN "ŞƏFAÜL-ƏSRAR" ƏSƏRİNDƏ SUFİ ORUCU VƏ
MİR HƏMZƏ SEYİD NİGARİNİN "ÇAYNAMƏ" MƏSNƏVİSİNDƏ ÇAY MƏDƏNİYYƏTİ
ƏSASLI SUFİ ƏDƏBİ
Fariz Xəlilli 217

BAYRAM FENOMENİ: SOSİAL ZAMAN, QONAQPƏRVƏRLİK, PAYLAŞMA VƏ
BARIŞIN RİTUAL MƏDƏNİYYƏTİ
Pərvin Ahənçi 222

ƏNƏNƏDƏN İRSƏ: NOVRUZ MƏRASİMLƏRİ KOLLEKTİV YADDAŞ VƏ
İDENTİKLİK KONTEKSTİNDƏ
Pərvin Ahənçi 243

NOVRUZ OYUNLARI VƏ XALQ ƏYLƏNCƏLƏRİ
Kübra Əliyeva 258

NAR FESTİVALININ KEÇİRİLMƏSİ TARİXİ VƏ GÖYÇAY RAYONUNUN İQTİSADİ,
SOSİAL-MƏDƏNİ HƏYATINDAKI ROLU
Adil Məmmədov 268

NARIN AZƏRBAYCAN MƏDƏNİYYƏTİNDƏ YERİ VƏ SİMVOLİKASI
Ümidə Məcnunlu 273

"SƏMƏNİ" ADLI QƏDİM VƏ MÜQƏDDƏS MAYE-İÇKİNİN HAZIRLANMA ƏNƏNƏSİNİN
BƏRPASINA DAİR
Kübra Əliyeva 276

SƏDƏF SƏNƏTİ: TARİXİ, MAHİYYƏTİ VƏ TƏTBİQİ
Balabəy Balabəyov 283

AZƏRBAYCAN MUĞAMI HAQQINDA BƏZİ QEYDLƏR
Mehman Mikayılov 286

FOTOLAR 290

NAR FESTİVALININ KEÇİRİLMƏSİ TARİXİ VƏ GÖYÇAY RAYONUNUN İQTİSADİ, SOSİAL-MƏDƏNİ HƏYATINDAKI ROLU

Adil Məmmədov
Şair-publisist, əməkdar müəllim,
«Göyçay» qəzeti
https://doi.org/10.30546/19023.2026.1001413

Göyçay rayonunda "Nar festivalı" Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Göyçay Rayon İcra Hakimiyyətinin birgə təşəbbüsü əsasında ilk dəfə 3 noyabr 2006-cı ildə keçirilmişdir. Festival ərəfəsində iki aydan artıq müddətdə rayonda geniş hazırlıq işləri aparılmışdır. Göyçay şəhərinin mərkəzi küçələri, qarşılanma və açılış mərasimlərinin təşkil olunacağı ərazi bayram ab-havasına uyğun şəkildə bəzədilmiş, nar meyvəsi və ondan hazırlanmış məhsulların satışı üçün mərkəzi prospekt boyunca iki kilometrdən artıq sahədə köşklər və piştaxtalar quraşdırılmışdır. Qonaqların hərəkət edəcəyi marşrut boyunca küçələrin kənarlarında müxtəlif idarə və təşkilatların, təhsil və səhiyyə müəssisələrinin, kənd ərazi nümayəndəliklərinin, bələdiyyələrin, eləcə də rayon sənətkarlarının hazırladıqları əl işləri, rəsmlər və digər sərgi materiallarının nümayişi üçün xüsusi yerlər ayrılmışdır.

Qonaqlar Göyçay şəhərinin girişində yerləşən və "Dörd yol" adlanan ərazidə, avtovağzalın yaxınlığında qarşılanmışdır. Qarşılanma mərasimində rayon ictimaiyyətinin nümayəndələri, tələbələr, məktəblilər, musiqiçilər və həmin ərazidə yaşayan sakinlər iştirak etmişlər. Gələn qonaqlar, Milli Məclisin deputatları, müxtəlif nazirliklərin rəhbər əməkdaşları, alimlər, şair və yazıçılar, tanınmış mədəniyyət və incəsənət xadimləri, həmçinin ondan artıq ölkənin Azərbaycandakı səfirləri və səfirlik nümayəndələri milli geyimli gənclər tərəfindən Azərbaycan, ingilis və rus dillərində salamlanmışdır.

Onlarla milli geyimli gənc gələn qonaqları təzə hazırlanmış nar şirəsi ilə qarşılamış, aşıqlardan və xanəndələrdən ibarət musiqi qrupları isə mərasimə xüsusi ovqat qatmışdır. Daha sonra qonaqlar rayon rəhbərliyinin, ziyalıların və yerli sakinlərin müşayiəti ilə açılış mərasiminin keçiriləcəyi məkana doğru təxminən bir kilometrə yaxın məsafəni piyada qət etmişlər. Yol boyu musiqi sədaları altında rəqs qruplarının və idmançıların nümayiş etdirdikləri rəngarəng çıxışları izləmiş, xarici qonaqlar isə könüllü gənclərin tərcüməçiliyi ilə onları qarşılayan və salamlayan insanlarla səmimi ünsiyyət qurmuşlar. Həmin gün Göyçay şəhəri ilk dəfə olaraq ingilis, alman, fransız, vyetnam, çin, koreya, ərəb, rus, ukraynalı, belarus, Afrika və Pribaltika xalqları daxil olmaqla müxtəlif millətlərin nümayəndələrini eyni vaxtda qəbul etmişdir.

Açılış mərasiminin keçiriləcəyi meydanda qonaqları folklor kollektivləri – rəqs və xor qrupları qarşılamışdır. Qonaqlar yerlərini tutduqdan sonra meydana faytonla daxil olan Nar şahzadə və onu müşayiət edən milli geyimli qızlar səhnəyə yaxınlaşmışlar. Nar şahzadə qonaqları salamladıqdan sonra meydanın mərkəzində yerləşdirilmiş nəhəng nar maketi dilimlər şəklində açılmış və tamaşaçılar maraqlı səhnə ilə qarşılaşmışlar. Maketin içərisindən nar dənələrini xatırladan geyimlərdə olan ondan artıq uşaq çıxaraq rəqs etməyə başlamışdır. Ardınca məktəblilərin ifasında "Narların bəhsi" adlı yumoristik mənzum səhnəcik təqdim olunmuşdur. Daha sonra rayon icra hakimiyyətinin başçısı, Milli Məclisin üzvləri, nazirlər və səfirlər çıxış edərək festivalın rayonun ictimai həyatındakı əhəmiyyətindən bəhs etmişlər. Tədbirin davamında qonaqlar şəhər parkında xatirə olaraq nar ağacları əkmişlər.

Musiqi sədaları altında qonaqlar nar və nar məhsullarının nümayiş olunduğu köşklərə, sərgilərə və müxtəlif əl işlərinə baxmış, Göyçay rayonunun ayrı-ayrı kəndlərində yetişdirilən nar növləri

ilə tanış olmuşlar. Yerli kənd təsərrüfatı mütəxəssisləri, narçılıq üzrə ixtisaslaşmış aqronomlar, Bitkiçilik İnstitutunun Göyçay Dayaq Məntəqəsinin elmi işçiləri və həkimlər narın xüsusiyyətləri, onun xalq təbabətində geniş tətbiqi və müalicəvi əhəmiyyəti barədə məlumat vermişlər.

Onlara narın müalicəvi xüsusiyyətlərinin qədim dövrlərdən etibarən misirlilər, assuriyalılar, yunanlar və romalılar tərəfindən məlum olduğu barədə məlumat verilmişdir. Bildirilmişdir ki, hələ dörd min il əvvəl Çin təbibləri nar qabığından qurd əleyhinə vasitə kimi istifadə etmişlər və bu məlumat qonaqlar tərəfindən maraqla qarşılanmışdır.

Gəzinti zamanı yerli sakinlər, öz məhsullarını nümayiş etdirən sahibkarlar və fermerlər qonaqlara müxtəlif nar növlərini, eləcə də nardan hazırlanmış çoxsaylı məhsulları, nar şirəsi, nar şərbəti, narşərab, nardança və digər məhsulları təqdim etmişlər. Bununla yanaşı, nardan istifadə olunaraq hazırlanan müxtəlif yemək və qəlyanaltı növləri ilə qonaqlar tanış edilmiş, onların hazırlanma və istifadə qaydaları izah olunmuşdur.

Daha sonra qonaqlar xüsusi hazırlanmış səhnədə narla bağlı təşkil olunmuş müsabiqələrə tamaşa etmişlər. Ən böyük narın təqdim edilməsi, müəyyən vaxt ərzində ən çox narın dənələnməsi, nar şirəsinin sıxılması və digər yarışlar tamaşaçılar tərəfindən alqışlarla qarşılanmışdır. Çəkisi bir kiloqramdan artıq olan narların nümayişi qonaqlarda xüsusi maraq və heyrət doğurmuşdur. Müsabiqələrin qalibləri münsiflər heyəti tərəfindən müəyyən edilərək xüsusi mükafatlarla təltif olunmuşlar. Sonrakı illərdə keçirilən festivallarda nara həsr olunmuş şeirlər, rəsm əsərləri və əl işləri üzrə müsabiqələr də təşkil edilmiş, qalib müəlliflər mükafatlandırılmışdır.

Gün ərzində qonaqlara rayonun yetmişdən artıq restoran və kafelərində, çayxanalarında, həm qapalı, həm də açıq məkanlarda xidmət göstərilmişdir. Bununla yanaşı, Göyçay şəhərində açıq havada otuzadək səyyar yeməkxana və eyni sayda çayxana fəaliyyət göstərmiş, əlli yaxın səyyar köşkdə mineral suların və əsasən nar şirəsi olmaqla müxtəlif meyvə şirələrinin satışı təşkil olunmuşdur. Şəhərdə qurulmuş piştaxtalarda, kənd təsərrüfatı məhsulları yarmarkasında, bazarlarda və yol kənarlarında gün ərzində nar və ondan hazırlanmış məhsullarla yanaşı, rayonda yetişdirilən heyva, xurma, əzgil, qoz, üzüm, armud kimi meyvələr, eləcə də ərik, şaftalı, gilas, albalı, gilənar, əncir, gavalı və digər mövsümi meyvələrdən hazırlanmış şirələr, mürəbbələr və qurudulmuş məhsullar satışa çıxarılmışdır.

Satış və gəzinti gün batana qədər davam etmiş, axşam saatlarında isə şəhər stadionunda respublikanın tanınmış mədəniyyət və incəsənət xadimlərinin, eləcə də yerli musiqiçilərin iştirakı ilə təşkil olunan möhtəşəm bayram konserti üç-dörd saat davam etmişdir.

Göyçayda keçirilən ilk "Nar festivalı"nda otuzadək xarici ölkədən yüzlərlə nümayəndə, eyni zamanda Bakı şəhərindən və respublikanın demək olar ki, bütün bölgələrindən on minə yaxın qonaq iştirak etmişdir. Məhz 3 noyabr 2006-cı ildə Göyçayda sonralar ənənəvi xarakter alan, bayram ovqatlı və möhtəşəm tədbir kimi yadda qalan Nar Festivalının əsası qoyulmuşdur.

Maraqlıdır ki, həm rayon əhalisi, həm də respublikanın digər bölgələrində yaşayanların əksəriyyəti bu tədbiri "Nar bayramı" kimi adlandırır. Göyçay Rayon İcra Hakimiyyətinin dəstəyi ilə yerli ziyalıların təşəbbüsü nəticəsində ilk Nar festivalına həsr olunmuş, maraqlı məqamları əks etdirən yazılar və fotoşəkillərdən ibarət kitab festivaldan qısa müddət sonra nəşr edilmişdir.

Sonrakı illərdə festivalın məzmunu daha da zənginləşdirilmiş, müxtəlif yeni elementlər əlavə olunmuşdur. Bəzi illərdə tədbirdən bir və ya iki gün əvvəl elmi-praktik konfranslar da təşkil edilmişdir. Bu konfranslarda respublikanın tanınmış bioloq alimləri, sənətşünaslar,

ədəbiyyatşünaslar və folklorşünaslar iştirak etmişlər. Məruzələrdə narın dünyanın müxtəlif bölgələrində yetişdirilməsi, Azərbaycan narının, xüsusilə Göyçay narının keyfiyyət xüsusiyyətlərinə görə fərqlənməsi məsələləri geniş şəkildə təhlil olunmuşdur.

Araşdırmalara əsasən, Azərbaycan ərazisində narın becərilməsi və yayılması qədim dövrlərə gedib çıxır. Elmi tədqiqatlarda göstərilir ki, nar hələ qədim zamanlardan Qarabağ bölgəsində, xüsusilə indiki Ağdam rayonu ətrafında, eləcə də Şirvan ərazisində, o cümlədən Göyçayda geniş yayılmışdır.

Arxeoloji qazıntılar zamanı Mingəçevir və Gəncəçay ərazisində aparılan tədqiqatlar nəticəsində miladdan əvvəl VI-V minilliklərə aid nar ağacı qabıqlarının aşkar edilməsi narın Azərbaycanda becərilməsinin qədim tarixə malik olduğunu təsdiqləyir. Göyçay rayonunun dağlıq və əlçatmaz ərazilərində, insan məskunlaşmasının olmadığı sahələrdə yabanı (cır) nar kollarının geniş yayılması isə bu ərazinin narın ən qədim yayılma ocaqlarından biri olduğunu göstərir. Bunu həmçinin bölgədə nar növlərinin zəngin müxtəlifliyi, nardan hazırlanan məhsulların çoxçeşidliliyi və bəzi məhsulların yalnız Göyçaya məxsus olması da sübut edir.

Alimlərin fikrinə görə, dünyada narın 300-dən artıq növü mövcuddur və onların təxminən 200-ü Azərbaycanda becərilir. Mütəxəssislərin qənaətinə əsasən, Göyçay ərazisində narın 70-dən çox növü yetişdirilir və bu növlərin əksəriyyəti yalnız bu bölgəyə xasdır. Həmin növlər keyfiyyəti, dad xüsusiyyətləri, şirə çıxımı, müalicəvi əhəmiyyəti və tərkibindəki zəngin maddələrə görə xüsusi dəyərə malikdir.

Elmi-praktik konfranslarda səsləndirilən bu mülahizələr Göyçay narına olan marağın daha da artmasına səbəb olmuşdur. Mütəxəssislərin fikrincə, Göyçayda yetişdirilən nar növləri arasında xüsusilə Bığır kəndində becərilən narlar seçilir.

Nar festivalı ərəfəsində keçirilən elmi-praktik konfranslarda narın yalnız qida məhsulu kimi deyil, həm də tibbi-müalicəvi xüsusiyyətləri geniş şəkildə müzakirə olunmuş, bu sahədə elmi əsaslara söykənən dəyərli çıxışlar təqdim edilmişdir. Eyni zamanda narın incəsənətdə, xalq tətbiqi sənətində, rəssamlıqda və ədəbiyyatda yaratdığı obrazlar barədə fikirlər səsləndirilmiş, onun xalqın mifoloji dünyagörüşündə və folklorunda tutduğu mühüm yer elmi baxımdan təhlil edilmişdir. Bu konfransların materialları sonradan kitab şəklində nəşr olunmuşdur.

XX əsrin 90-cı illərindən etibarən Göyçay rayonunda digər meyvə növlərinə marağın artması nəticəsində narçılığın inkişafında müəyyən durğunluq müşahidə olunmuşdur. Xurma (xurnik), göyçə (alça) və digər bitkilər daha gəlirli sahə kimi qiymətləndirildiyindən yerli əhali tərəfindən geniş şəkildə əkilmiş, yeni bağlar salınmışdır. Bu proses nəticəsində bəzi nar bağlarının ləğv edilməsi, həyətyanı sahələrdə nar ağaclarının çıxarılaraq yerinə digər meyvə ağaclarının əkilməsi halları artmışdır. Eyni zamanda respublikanın digər bölgələrində nar bağlarının genişləndirilməsi də Göyçayda narçılığın əvvəlki mövqeyini qismən itirməsinə səbəb olmuşdur. Bununla belə, Göyçay narının yüksək keyfiyyətə malik olduğunu bilənlər bu sahənin qorunması və inkişafı üçün müxtəlif yollar axtarmışlar.

Bu baxımdan Nar festivalının təşkili mühüm dönüş nöqtəsi olmuşdur. Festival Göyçay narının unikal xüsusiyyətlərini geniş ictimaiyyətə təqdim etmiş, onun təbiətin nadir və təkrarsız nemətlərindən biri olduğunu nümayiş etdirmişdir. Nəticədə, festival narçılığın tənəzzülünün qarşısının alınmasında və onun yenidən inkişaf etdirilməsində əhəmiyyətli rol oynamışdır. Tənəzzülə uğramış yüzlərlə hektar nar bağları bərpa edilmiş, onlarla hektar yeni bağlar salınmışdır. Yeni salınan bağlarda əsasən Göyçaya məxsus yerli nar növləri, gülövşə, şıxbaba, balamürsəl, irigilə, nazikqabıq, şahnar, vələs, şirin şıxbaba və digər növlər yetişdirilməyə başlanmışdır.

Hazırda Nar festivalı günü Göyçayda bir gün ərzində onlarla ton nar və nardan hazırlanmış məhsullar satılır. Nar mövsümündə isə həm festival ərəfəsində, həm də festivaldan sonra yüzlərlə ton məhsul realizə olunur. Göyçay narının satışı adətən mart ayına qədər davam edir, çünki bu məhsul əlavə xərc tələb etmədən təbii şəraitdə uzun müddət saxlanıla bilir. Respublikanın müxtəlif bölgələrindən Göyçay narına maraq göstərənlərin sayı ildən-ilə artır, bu məhsulun sovqat kimi ölkə daxilində və xarici ölkələrə göndərilməsi isə artıq ənənə halını almışdır. İlk Nar festivalının keçirilməsindən artıq iyirmi ilə yaxın müddət keçmişdir.

Bu illər ərzində Göyçayda narçılıq nəzərəçarpacaq dərəcədə inkişaf etmişdir. Hazırda rayonda narçılıqla məşğul olan fermerlər və həyətyanı sahələrdə nar becərən əhali üçün məhsulun satışı problem təşkil etmir. Onlar artıq öz məhsulları üçün bazar axtarmaq məcburiyyətində qalmır, yetişdirilən nar və nardan hazırlanmış məhsulların böyük hissəsi Göyçayın özündə, istehsalçını qane edən qiymətlərlə realizə olunur.

İlk "Nar festivalı"nın keçirilməsindən ötən iyirmi illik dövr göstərir ki, bu tədbirin əhəmiyyəti yalnız narın təbliği və narçılığın inkişafı ilə məhdudlaşmır. Festival eyni zamanda XX əsrin 80-ci illərinin sonu və 90-cı illərinin əvvəllərində iş axtarışı ilə kəndləri tərk edərək əsasən Bakı şəhərinə üz tutmuş əhalinin yenidən doğma torpaqlarına qayıtmasına təkan vermişdir. Bu proses nəticəsində baxımsızlıqdan tənəzzülə uğrayan bağlar bərpa olunmuş, əkilib-becərilməyən torpaqlar yenidən istifadə dövriyyəsinə daxil edilmişdir.

Bununla yanaşı, narçılığın inkişafı yeni iş yerlərinin yaradılmasına və əhalinin məşğulluğunun təmin olunmasına mühüm təsir göstərmişdir. Torpağa bağlılığın artması kənd təsərrüfatının digər sahələrinin, taxılçılıq, yemçilik, heyvandarlıq, quşçuluq, tərəvəzçilik və bağçılığın inkişafını da stimullaşdırmışdır. Kənd təsərrüfatı məhsullarının həcminin artması isə bölgədə yeni emal və istehsal müəssisələrinin yaradılmasına əlverişli şərait formalaşdırmışdır.

Məhz bu proseslərin nəticəsi olaraq hazırda Göyçay rayonunda əhalinin həyat səviyyəsi yüksəlməkdədir, kəndlər abadlaşır, təsadüfi iş axtarışı ilə şəhərlərə üz tutanların, xüsusilə gənclərin sayı azalır və əksinə, kənddən köçmüş insanların geri qayıtması prosesi sürətlənir. Bu müsbət meyillər artıq digər rayonlarda da müşahidə olunmaqdadır. Qonşu bölgələrdə keçirilən festivallarda hiss olunan ümumi ab-hava Göyçayda keçirilən Nar festivalının təsirini aydın şəkildə əks etdirir.

Nar festivalının keçirilməsi Göyçayda xalq sənətkarlığının inkişafına da ciddi təkan vermişdir. Hazırda yerli sənətkarların və rəssamların nar mövzusuna həsr olunmuş əl işləri, rəsm əsərləri, natürmortlar, müxtəlif materiallardan hazırlanmış fiqurlar, ağac üzərində oyma və yandırma üsulu ilə işlənmiş kompozisiyalar və digər nümunələr festival iştirakçıları tərəfindən suvenir kimi böyük maraqla alınır. Bu proses yalnız iqtisadi fayda ilə məhdudlaşmır, eyni zamanda bölgədə mədəniyyətin və xalq yaradıcılığının inkişafına mühüm töhfə verir. Ümumilikdə, Nar festivalının Göyçayın iqtisadi inkişafındakı rolu danılmazdır, lakin onun əsas məqsədi regionun təbliği, mədəni və iqtisadi potensialının nümayişi və turizmin inkişaf etdirilməsidir.

2006-cı ildən etibarən keçirilən festival yalnız COVID-19 pandemiyası səbəbindən 2020-2022-ci illərdə baş tutmamış, 2023-cü ildən isə yenidən bərpa olunmuşdur. Son illərdə festival iki gün davam edən genişmiqyaslı tədbir formatında təşkil edilir. Xüsusilə 2025-ci ildə, 44 günlük Vətən müharibəsində əldə edilmiş qələbənin beşilliyinin qeyd olunduğu dövrdə keçirilən Nar festivalı öz miqyası və məzmunu ilə seçilmişdir. 8 Noyabr Zəfər Günündən sonra təşkil edilən bu tədbir həm mədəni, həm də iqtisadi potensialın nümayişinə çevrilmişdir.

Ümumilikdə, Nar festivalı Göyçay əhalisinin həyatına yeni dinamika gətirmiş, onu daha rəngarəng və cəlbedici etmişdir. Bu tədbir uşaqlar və məktəblilər üçün xüsusi maraq doğuran,

hər il səbirsizliklə gözlənilən əlamətdar günə çevrilmişdir. Festival eyni zamanda Göyçay üçün dünyaya açılan bir platforma rolunu oynayır; müxtəlif ölkələrdən gələn qonaqlarla qurulan ünsiyyət yeni dostluq, tərəfdaşlıq və əməkdaşlıq münasibətlərinin formalaşmasına şərait yaradır.

Nar festivalının keçirilməsi nəticəsində beynəlxalq media vasitələrində Göyçay, onun nar məhsulları, mədəniyyəti və iqtisadi həyatı barədə çoxsaylı verilişlər və materiallar hazırlanmışdır. Xarici ölkə vətəndaşları Göyçay narı vasitəsilə Azərbaycanı daha yaxından tanımış, ölkənin zəngin mədəni irsi və qonaqpərvərlik ənənələri ilə tanış olmuşlar. Bu festival müxtəlif xalqlar arasında mədəni əlaqələrin inkişafına mühüm töhfə vermiş, Göyçay narının "əsl Azərbaycan narı" kimi tanınmasına şərait yaratmışdır.

Bir dəfə Nar festivalında iştirak edən şəxslər növbəti illərdə keçiriləcək tədbiri səbirsizliklə gözləyir. Festival Göyçayın müxtəlif ölkələrin şəhər və regionları ilə dostluq və əməkdaşlıq əlaqələrinin qurulmasına imkan yaratmış, bu isə ümumilikdə Azərbaycanın beynəlxalq əlaqələrinin möhkəmlənməsinə xidmət etmişdir.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300